**İllər boyu düşmən tapdağında olan torpaqlarımız, nəhayət, igid övladlarımızın qanı bahasına azad oldu. Minlərlə şəhid verdik. Minlərlə atanın beli büküldü, minlərlə ana ağlar qaldı, minlərlə bacı başına qara bağladı, minlərlə qardaş arxasız qaldı, minlərlə körpə atasız qaldı. Amma Azərbaycan xalqı sınmadı. Xalq bir gözündə qələbə sevinci, bir gözündə şəhid kədəri qəhrəman oğullarımızı dəfn etdi.**

# Şəhid Məhərrəm Səmədov




Uğrunda sevdiklərinə, xoşbəxtliklərinə arxa çevirib, "Vətən sağ olsun" deyib, canlarını qurban verdikləri torpaq igidlərimizi qoynuna aldı. Hamının ziyarət edəcəyi müqəddəs məkanlar "Şəhidlər Xiyabanı" oldu. Birdimi, beşdimi, yüzdümü, mindimi?..

Azərbaycanın hər bölgəsində olduğu kimi bizim Maştağa kəndində də sakinlərin hər cümə axşamında, hər bayramda ziyarət etdikləri Şəhidlər Xiyabanı var. Burada həm 90-cı illərin şəhidləri, həm də II Qarabaq müharibəsi şəhidləri uyuyur...

Maştağa Şəhidlər Xiyabanında şəhid məzarlarından başqa xiyabanın divarına vurulmuş şəhid şəkilləri də diqqəti çəkir. Bu şəkillər Maştağa ilə əlaqəsi olan, lakin bu xiyabandan kənar yerlərdə dəfn olunmuş şəhidlərimizin şəkilləridir. Bu igidlərimizdən biri də Maştağa Seyyidlər qəbristanlığında uyuyan II Qarabağ Müharibəsi şəhidi Məhərrəm Elxan oğlu Səmədovdur...

Şəhid Məhərrəm 2001-ci il martın 27-də Maştağada dünyaya göz açmışdır. 2008-2017-ci illərdə 209 saylı məktəbdə təhsil almış, Xəzər rayonunda 101 saylı peşə litseyində avtoelektrik peşəsinə yiyələnmişdir. 2019-cu il aprelin birində hərbi xidmətə getmiş, Goranboyun Ballıqaya yüksəkliyində xidmətə başlamışdır. 3 aydan sonra manqa başçısı təyin edilmişdir. Bir il Tülküdərədəki hərbi hissədə xidmət etmişdir...

Şəhidlərimizin böyüyüb boya-başa çatdığı evləri tapmaq çətin olmur, çünki həmin evin qapısından əvvəl o evə gedən küçənin başında şəhidlərin şəklini görürsən. Şəhid Məhərrəmin şəkli də bizi elə döngənin əvvəlində salamladı. Əsgər paltarında, döyüşən əsgər kimi...

Evlərində kimsə olmadığından, qonşu Sənayə Məlikzadə bizi evinə dəvət etdi. Sənayə xanım gəlişimizin məqsədini bildiyindən, elə evə keçə-keçə Məhərrəmdən danışmağa başladı: "Çox yaxşı uşaq idi. Tərbiyəli idi, oğlum Mirsamirlə peşə məktəbində oxuyublar.

Həmişə məni yüklə görəndə, o saat gəlib əlimdən alardı. Özləri üçün bazarlıq edərdi, kiçik qardaşlarını məktəbə aparardı. Gülərüz, ünsiyyətcil idi. Oktyabrda əsgərliyi bitirdi, müharibə başladı. Atası qoyun almışdı, qoyun hey mələyirdi. Soruşduq ki, bu qoyun niyə mələyir. Dedi ki, bilmirik. Məhərrəm şəhid olan gün qoyunun mələməsi dayandı...". Bu da bir təqdiri-Xudadır.

Sənayə xanım sanki qonşunun oğlu haqqında deyil, öz oğlu haqqında danışırdı. Yana-yana danışırdı. Kövrəlirdi, ağlayırdı, yenə eyni sözləri deyirdi. Bəlkə Məhərrəmi tərif etmək üçün söz tapa bilmirdi, ya da onun tapdığı sözlərdən daha gözəinə, daha yüksəyinə layiq olduğunu bildiyi üçün nə axtarırdı. Sənayə xanım oğlunun telefonunu verdi bizə. Mirsamirlə əlaqə saxladıq, o da anası kimi danışdı. "Biz qonşu yox, dost yox, qardaş olmuşuq" dedi. Sonra vaxt təyin etdik, qərara aldıq ki, Məhərrəmin atası və qardaşı evdə olanda elə onlarda görüşək...

Qərarlaşdığımız vaxtda Məhərrəmgilin qapısını bir də döydüm. Şəhid qapısı döymək sizə o qədər də asan gəlməsin. Şəhid qapısı döymək, o evdə olanlarla şəhid acısını, oğul itkisini bölüşmək deməkdir. Şəhid qapısı döymək, ağlayan gözlərin yaşını silə bilmək, sızlayan ürəkləri ovuda bilmək deməkdir. Şəhid qapısı döymək... Bunun nə demək olduğunu o qapıları döyənlər bilir...

Evdə Məhərrəmin qardaşı Şahin idi. Şahin suallarımı dinlədi, amma heç birinə cavab vermədi. Bir azdan atası Elxan gəldi. bir müddət susdum, düzü nə deyəcəyimi bilmirdim. Mənim şəhidlər haqqına ilk sualım həmişə onların uşaqlıqları barədə olur. Bu mənada şəhid anaların dinləmək maraqlı gəlir. Məhərrəmin anasını görə bilmədiyimizdən, bu sualı atası Elxana verdik, onun uşaqlığı haqqında danışmasını istədik. ata oğul haqqında o qədər hərarətlə danışdı ki: "Uşaqlıqdan zirək uşaq idi. Nə desəydin, "eləmirəm" deməzdi. Hara göndərirdim gedirdi. İşdən yorulmazdı. Hətta qonşulara da, qohumlara da kömək edərdi. Uşaqlıqdan pişik kimi, yolu yaxın olsun deyə, damlarüstü gəzərdi. Gecə ikən evlərin damıyla gedib haralara çıxardı, heç kim də onu görməzdi...".

Söhbətə qoşulan Mirsamir deyir: "13-14 yaşlarınfda olardıq. Bir dəfə Sabunçuda bazarda quşsatanla rastlaşdıq. Quşun biri çıxıb yüksək bir yerə oturub. Sahibi də nə qədər edir, quş ordan düşmür. Məhərrəm dedi ki, bu quşu sat mənə, mən çıxıb onu götürüm. Nəsə danışdılar. Məhərrəm dedi ki, yanımda 12 manat var. Razılaşdılar, kişi pulu aldı. Məhərrəm pişik kimi ora dırmaşdı, quşu götürdü. Biz baxdıq ki, kişinin fikri başqadır, düşünür ki, Məhərrəm yerə düşən kimi quşu ondan alsın, desin ki, satmıram. İndi qalmışıq ki, bunu Məhərrəmə necə başa salaq. Sən demə, Məhərrəm bizdən qabaq bunu başa düşüb. Bir də gördük ki, quşu pencəyinin altına saldı, o biri tərəfdən fırlanıb, "Mən getdim, Maştağada görüşərik" deyib götürüldü. Kişi də matməəttəl baxa-baxa qaldı...".

Elxan kişi yenidən sözünə davam etdi: "Məhərrəm çox qaynayıb-qarışan idi. Çoxlu dostu vardı. Hamısına yol tapırdı, hamı xətrini istəyirdi. Öz yaşıdı olan dostları da vardı, özündən kiçik də, böyük də. Hətta lap yaşlı dostları vardı, 74 yaşında kişi ilə dostluq edirdi. Hamıya yaxşılıq etməyə çalışırdı, ona görə də çox istəyirdilər onu. Bir xasiyyəti var idi, hara getsəydi, tapşırdığın işini yarımçıq qoymazdı, işini görüb gedərdi... ".

Mirsamir yenə də maraqlı bir əhvalat danışır: "Məhərrəm çox mərd uşaq idi. Yaşı az olsa da, kişi kimi idi. Bir dəfə 16-17 yaşımız olardı, avtobusda kəndə gəlirdik. Sürücünün kim olduğunu deməyəcəyəm. Bir uşaqlı qadın avtobusdan düşəndə sürücü qapını tez bağladı, uşaq qaldı. Camaat əhvalatdan xəbər tutana kimi, Məhərrəm sürücünü düşürtdü, getdik onu elə günə qoyduq ki, uşağın adamları gələndə gördülər daha döyüləsi halı qalmayıb. Onun belə işləri var idi, haqsızlığa dözməzdi, yerindəcə o adamın cavabını verirdi..."

Elxan kişi növbəti sualımızın cavabında dedi: "2019-cu ildə hərbi xidmətə çağırıldı, yola saldıq, Goranboyun Ballıqaya yüksəkliyinə düşmüşdü. Manqa başçısı idi. Tülküdərəyə göndərdilər, bir il idi ki, orada xidmət edirdi. Evə buraxılmağına az qalmışdı. Sentyabrın 13-də paltarlarını göndərmişdik. Oktyabr buraxılışında gəlməliydi...

Sentyabrın 27-də müharibə başladı. Eşidəndə çox nigaran olduq. Hər gün zəng vurub deyirdi ki, biz arxadayıq, amma əslində ön cəbhədə imiş. Axırıncı dəfə oktyabrın 6-da zəng vurub danışmışıq. Dostlarının dediyinə görə, oktyabrın 7-də Ağdərəyə göndəriliblər. 9 gün döyüşlərdə iştirak ediblər, oktyabrın 15-də döyüşərkən artilleriya atəşindən şəhid olub. Ordan Yevlaxa aparıblar. Oktyabrın 23-də bizə xəbər verdilər, gedib gətirdik..."

Şəhid atası fəxrlə, qürurla danışsa da, hiss edirdim ki, içində şimşəklər çaxır, ürəyindən qara qanlar axır. Zarafat deyil, bir qarın tox-bir qarın ac oğul böyüt, əsgər yola sal, yol gözlə, fikirləş ki, bir neçə günə gələcək, qurbanlıq qoyun al, qulluq elə, birdən hər şey alt-üst olsun, arzuların ürəyində qalsın...

Şəhid atasından şəhidimizin döyüş yoldaşlarının telefonunu istədim, "bilmirəm" dedi, amma döyüş yoldaşlarının dediklərini bizə danışdı: "Könüllü cəbhəyə gedən uşaqlar var, Məhərrəmlə bir yerdə vuruşublar. Onlar Məhərrəm haqqında çox şey bilirlər, Şüvələndan olan Elməddin Məhərrəmin yanına gedib, ona telefon bağışlayıb. Məhərrəmin ləqəbi "Maştağa" olub. Elməddin deyir ki, Məhərrəm bizim kazarmaya gəldi, bizə yemək-işmək gətirdi. Telefonlarımızın enerjisi bitmişdi. Bilmirdik necə dolduraq. Bir də gördük Məhərrəm getdi, yanan maşının akkumulyatorunu gətirdi, dedi ki, gəlin telefonlarımızı doldurun...

Hücum əmri verilib, komandir deyib ki, Məhərrəm, bir neçə günə evə gedəcəksən, sən arxada get, Məhərrəm deyib ki, mən manqamı buraxa bilmərəm. 500 metr gedəndən sonra qayıdıb telefonu Elməddinə qaytarıb deyib ki, əmanətinizi alın. Yəqin şəhid olacağını hidss edibmiş...

Uşaqlar deyir ki, Məhərrəm od parcası idi, onun kimisi yox idi. Bir dəfə zəng edəndə, yarızarafat dedi ki, mən qayıdandan sonra deyəcəklər ki, burda bir maştağalı vardı, onun kimisini görmədik. Dedim, yaxşı, bəsdi, daha özünü tərifləmə...

Bir dəfə də dedi ki, gecə postda olmuşam, səhərə kimi ermənilər tərəfə 3100 dənə güllə atmışam. Yəqin ki, onların hamısı boşa getməyib, hədəfə dəyəni də olub...

Hər dəfə Seyidlər qəbristanlığına gedəndə Məhərrəmin məzarını da ziyarət edirəm. Şəkillərdən körpə bir uşaq boylanır, elə baxır ki, ağlamaya bilmirsən... Allah şəhidimizə rəhmət eləsin, ruhu şad olsun, Allah ailəsinə səbr versin...

***Sona XƏYAL***